AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

AZ 1008, Bakı şəhəri
Xətai prospekti 49

tel.: +994 12 599 11 55, faks: +994 12 496 06 47
e-mail: office@edu.gov.az

"21" 02 2017 il

№ 11-1083/16

**Orta ixtisas təhsili müəssisələrinin rəhbərlərinə**

Azərbaycan Respublikası Təhsil Nazirinin 27.01.2017-ci il tarixli əmri ilə təsdiq olunmuş "Orta ixtisas təhsili müəssisələrində tələbələrin köçürülməsi, təhsilalma formasını dəyişməsi, xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət verilməsinə dair müvəqqəti Qaydalar"ın qüvvəyə minməsi ilə əlaqədar olaraq ümumi orta təhsil bazasından qəbul olunmuş birinci kurs, tədris prosesi kredit sistemi ilə təşkil olunmayan sonuncu kurs və qiyabi təhsil forması üzrə təhsil alan tələbələrin "akademik uğursuzluğa" görə tələbələr sırasından xaric edilməmələri, eləcə də akademik borcların ləğvi ilə bağlı yaranmış problemlər aşağıdakı kimi tənzimlənsin:

1. Tədris prosesi kredit sistemi ilə aparılmayan qruplarda təhsil alan sonuncu kurs tələbələrinə akademik borcların ləğvi üçün dövlət imtahanqabağı təcrübənin başlanğıcına qədər üç dəfə şərait yaradılır. Bu müddət ərzində akademik borclarını ləğv edə bilməyən tələbələr akademik borcu qalmış hesab olunur və bu borcların ləğvi 2017- 2018-ci tədris ilindən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 dekabr 2013-cü il tarixli 354 nömrəli qərarı ilə təsdiq edilmiş "Orta ixtisas təhsili müəssisələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na uyğun hayata keçirilir.

2. Ümumi orta təhsil bazasından təhsil alan, payız semestrinin imtahan sessiyasından akademik borcu qalan birinci kurs tələbələrinə borclarının ləğvi üçün yaz semestrinin imtahan sessiyasının başlanmasına qədər, yaz imtahan sessiyasından akademik borcu qalanlara isə üçüncü semestrin (ikinci kurs payız) imtahan sessiyası başlanmasına qədər üç dəfə vaxt verilir. Payız semestrinin imtahan sessiyasından akademik borclarını ləğv edə bilməyən tələbələr növbəti tədris ilinin başlanğıcından, yaz semestrinin imtahan sessiyasından akademik borclarını ləğv edə bilməyən tələbələr isə yaz semestrinin başlanğıcından təhsillərini ödənişli əsaslarla birinci kursda davam etdirə bilərlər.

3. Qiyabi təhsil forması ilə təhsil alan tələbələrə 2016/2017-ci tədris ilində akademik borclarının ləğvi üçün növbəti imtahan sessiyasının başlanmasına qədər üç dəfə vaxt verilir. Bu müddətdə akademik borclarını ləğv edə bilməyən tələbələr təhsillərini ödənişli əsaslarla yenidən müvafiq kurslarda davam etdirə bilərlər.

Aparat rəhbərinin müavini,
Elm, ali və orta ixtisas təhsili
şöbəsinin müdiri

Yaqub Piriyev